**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# S Ə R Ə N C A M

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq, avtomobil yolu layihələrinin hazırlanması, seçilməsi və maliyyələşdirilməsi məsələlərinin tənzimlənməsi məqsədilə:

1. “Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi” publik hüquqi şəxs:

1.1. muxtar respublikanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri və prioritetləri, qanunvericiliyin tələbləri nəzərə alınmaqla, habelə aidiyyəti orqanların texniki-iqtisadi cəhətdən əsaslandırılmış təklifləri əsasında 2025-ci il üçün 2024-cü il dekabrın 16-dan gec olmayaraq, növbəti illər üçün hər il oktyabrın 15-dən gec olmayaraq növbəti ildə tikinti, yenidənqurma və təmir işləri aparılacaq avtomobil yollarının siyahısını (bundan sonra - siyahı) tərtib etsin;

1.2. siyahının hazırlanması zamanı müvafiq sahədə həyata keçirilən mühüm layihələrin məqsəd və vəzifələrini, eləcə də qurulacaq yol infrastrukturunun digər sahələrə olan təsirlərini nəzərə alsın;

1.3. siyahı aidiyyəti mühəndisi kommunikasiyaların mülkiyyətçiləri və yerli icra hakimiyyəti orqanları ilə razılaşdırıldıqdan sonra növbəti ildə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı” çərçivəsində, Naxçıvan Muxtar Respublikası büdcəsinin, o cümlədən “Avtomobil yolları” Məqsədli Büdcə Fondunun vəsaiti hesabına icrası nəzərdə tutulan tikinti, yenidənqurma və təmir işləri aparılacaq avtomobil yollarının layihələrinin (bundan sonra – layihələr) əsaslandırılmasını, ilkin strukturunu və qiymətləndirilməsini özündə əks etdirən investisiya təkliflərini hazırlasın;

1.4. layihələrin ilkin əsaslandırılmasını, strukturunu və qiymətləndirilməsini özündə əks etdirən təkliflərini Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə təqdim etsin;

1.5. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müsbət rəy verilmiş layihələrin texniki-iqtisadi əsaslandırmasını, qiymətləndirilməsini və layihə-smeta sənədlərinin hazırlanmasını təmin etsin;

1.6. layihələrin maliyyələşdirilməsini təmin etmək məqsədilə yeni layihələndirilən obyektlər üçün qüvvədə olan normativ hüquqi aktlara uyğun hazırlanmış və təsdiq edilmiş layihə-smeta sənədlərini, layihənin maliyyələşdirilməsinə xüsusi, kredit, qrant və digər mənbələrdən vəsaitin yönəldilməsi barədə təklif arayışını, buraxılış layihələrini növbəlilik üzrə ayrıca əks etdirməklə, mövcud olduğu halda, illər üzrə yeni və keçid layihələrin təsdiq edilmiş titul siyahılarını, keçid layihələr üzrə bağlanılmış müqavilələrin surətini, investisiya qoyuluşunun texnoloji strukturu, o cümlədən smetaya daxil edilən avadanlıq və qurğular barədə məlumatları, layihə və layihənin əsas texniki və iqtisadi parametrlərini

müəyyənləşdirmək üçün layihəqabağı aparılmış araşdırmalar və layihənin texniki-iqtisadi əsaslandırması barədə məlumatları Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat və Maliyyə nazirliklərinə təqdim etsin;

1.7. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat və Maliyyə nazirlikləri tərəfindən iqtisadi səmərəliliyi və sosial faydalılığı müəyyən edilmiş və müvafiq rəy verilmiş layihələr barədə 2025-ci il üçün 2024-cü il dekabrın 25-dən, növbəti illər üçün hər il noyabrın 10-dan gec olmayaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim etsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “6” dekabr 2024-cü il

№ 122s